# "Xudafərin"in 90 yaşı

“Xudafərin” qəzeti 1932-ci ildən Cəbrayıl rayon İcra Hakimiyyətinin mətbu orqanı kimi nəşr olunur. Artıq 90 ildir ki, Cəbrayıl rayonunun ictimaiyyəti ilə ünsiyyətdə olan bu qəzet bu müddət ərzində oxucularının sevimlisinə çevrilib. Onu oxucularına sevdirən əsas cəhət respublikada və rayonun ictimai-siyasi, ədəbi-mədəni həyatında baş verən hadisələrlə oxucularını müntəzəm olaraq məlumatlandırması olub.


“Xudafərin harayından qalan mən!..”
XUDAFƏRİN
Novruz bayramınız mübarə
90 yaşlı qəzet

Qəzetin oxunaqlığı, hər şeydən əvvəl, savadlı qələm əhlindən asılıdır. Eyni zamanda redaksiyaya daxil olan yazıları baş redaktorun yaxşı redaktə edə bilməsi də bu baxımdan mühüm şərtdir. “Xudafərin” qəzetinin müxtəlif dövrlərdə adlı-sanlı, tanınmış redaktorları olub: Adil Əbilov, Xasay Əliyev, Şahsuvar Yusifov, Qaryağdı Həsənov, Əfsər Məmmədov, İnqilab Əliyev, Fehruz Atakişiyev, Sirac Rüstəmov, Ədil Şərifov, Hafiz Hüseynov, Sərməst Seyidəliyev, Afər Əhmədov, Seyfəddin Əliyev, Sahib Abdullayev...

Məhz onların sayəsində qəzet sarsılmaz bünövrə tutub, mənəvi inkişaf yolu keçib. Adlı-sanlı, tanınmış Cəbrayıl ziyalılarının, yazarlarının demək olar, əksəriyyəti “Xudafərin”in şinelindən çıxıb, püxtələşiblər. Bu mənada “Xudafərin” Cəbrayılın qələm adamlarının mənəvi yaradıcılıq mərkəzi rolunu da oynayıb. Şair İsmayıl İmanzadənin rəhbərliyi altında rayonda fəaliyyət göstərən “Ümid” Ədəbi Birliyi üzvlərinin sayseçmə şeir və nəsr nümunələrinin “Xudafərin”də ilk dəfə olaraq işıq üzü görməsi də yaradıcı şəxsə böyük mənəvi stimul verib. Ümumiyyətlə götürdükdə isə bu qəzetdə kiminsə məqaləsinin, zarisovkasının çap olunması müəllif üçün hədsiz sevinc olduğu kimi, ictimaiyyət arasında da böyük uğur hesab olunub.

Bir incə nüansı da xatırladım ki, “Xudafərin” təkcə yazılarının məzmunu baxımından tərəqqi yolu keçməyib, elə ad baxımından da mərhələli sıçrayış, inkişaf yolu keçib. “Lenin bayrağı” adı altında həyata vəsiqə alan qəzetin 1960-cı illərin əvvəllərində “Kolxozçu” adına keçid etməsi addəyişkənliyi baxımından da bir yenilik, irəliyə doğru bir addım atması demək idi. Məhz bu addəyişmə 1990-cı illərin əvvəllərində daha mütərəqqi bir formada mənəvi dəyərlərimizin ifadəçisi olan adla - “Xudafərin” adı ilə əvəzlənməklə nəticələndi. Göründüyü kimi, bu ad özü də qəzetin ruhuna təzəlik gətirdi, sanki qəzetin məzmunca yeni bir istiqamət almasına mayak oldu. Qəzetin səhifələri tədriclə sovet stereotiplərindən sıyrıldı, kommunist, kolxozçu və s. tipli şablon, bürokrat fikir və düşüncələrdən azad oldu, milli və bəşəri ruhlu yazılara meydan açıldı...

Məlumdur ki, 30 ilə yaxın Cəbrayıl camaatı məcburi köçkün həyatı yaşadı. Bu ağır illərdə də “Xudafərin harayından qalan mən!..” devizi altında nəşr olunmaqla Cəbrayıllıların mənəvi birlik rəmzinə çevrildi. Bu illərdə “Xudafərin” qəzeti insanların dərd-sərini bölüşdüyü və bununla da aram olduğu bir mənəvi məkana, bir müqəddəs ünvana döndü. Onların vətənə qayıtmaq ümidlərini ölməyə qoymadı. Beləcə, “Xudafərin” adına, harayına sığınanlar üçün mənəvi dirilik, müqəddəs vətən rəmzinə döndü. Dövlətimizin apardığı məqsədyönlü daxili və xarici siyasəti öz səhifələrində daimi işıqlandıran, təbliğ edən “Xudafərin” qəzeti məhz bu siyasi dəst-xəttin ölkəni işıqlı gələcəyə çıxaracağını oxucularına təlqin etdi.

Böyük qürur hissi keçirdirəm ki, uzun və şərəfli mənəvi təkamül yolu keçən “Xudafərin” qəzetində yeddi il baş redaktorun müavini olmuşam. On dörd ildir ki, baş redaktor kimi fəaliyyət göstərirəm. Bu illər ərzində ürəyimdə bir arzu bəsləyirdim ki, insanlarımızla bərabər “Xudafərin” qəzetimiz də məcburi köçkünlükdən qurtulsun, doğma Cəbrayılımıza qovuşsun. Çox sevincəyəm ki, bu arzum baş tutdu. 2021-ci ilin 4 oktyabrında - Cəbrayılın işğaldan azad olunmasının 1-ci ildönümündə möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevlə doğma Cəbrayılda görüşdük. Həmin görüşə “Xudafərin” qəzetinin müxtəlif saylarını da aparmışdım. Cənab Prezidentlə görüşəndə “Xudafərin” qəzetini də ona təqdim etdim. Ölkə başçısı qəzeti əlinə götürüb diqqətlə göz yetirəndə elə sandım ki, bütün Cəbrayıl əhalisinin timsalında qəzetimiz də Prezidentimizlə “görüşüb-salamlaşdı”. Bu, mənim üçün tarixi bir sevinc, qürurverici duyğu demək idi. Ürəyimdəki arzuma da çatmışdım: “Xudafərin” respublikamızın rəhbərini Cəbrayılda “salamlayırdı”. “Xudafərin” Cəbrayıl torpağına “ayaq basmışdı”. Bu, “Xudafərin” qəzetinin baş redaktoru kimi mənim taleyimə yazılan xoşbəxtlik idi!

Əsası Həsən bəy Zərdabi tərəfindən qoyulan milli mətbuatımızın ənənələrinə daim sadiq olan qəzetimizin bundan belə də rəngarəng və maraqlı çıxmasına çalışacağam. Dövlətimizi, vətənimizi və xalqımızı təbliğ və tərənnüm edən qəzetimiz öz əzəli və əbədi ideyasına daim sadiq qalacaqdır.

Ağır illərin sınağından uğurla çıxan və yurddaşlarının inamını ölməyə qoymayan, onların vətənə dönmək arzularının yoluna işıq salan “Xudafərin” qəzeti 90 yaşlı bir müdrik timsalında tezliklə Cəbrayıl sakinlərinin doğma yurdlarına qayıdış yolunun da bələdçisi olacaqdır. “Xudafərin”in səhifələrini tezliklə Cəbrayılın yenidən tikilib-qurulmasından, abadlaşdırılmasından bəhs açan yazılar bəzəyəcəkdir!



***Şakir ALBALIYEV,***
***“Xudafərin” qəzetinin***
***baş redaktoru,***
***filologiya üzrə fəlsəfə doktoru***